შეფასებისა და გამოცდების ეროვნული ცენტრი

Müəllimin fənn imtahanı
iyul, 2016

# Təsviri və tətbiqi incənət üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Praktiki tapşırığa praktiki tapşırığa məxsus olan vərəqdə əməl edin. Praktiki tapşırığa (tapşırıq 26) əməl etmək üçün sizə karandaş, yazıpozan və karandaş itiləyən lazımdır.

Praktiki tapşırıq üçün lazım olan vərəqədə karandaşla işləyin! Karandaşdan yalnız bu tapşırığa əməl etmək üçün istifadə olunmasına yol verilir.

Testin maksimal xalı – 60-dır.

Testə əməl etmək üçün 5 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**1-19 tapşırığın təlimatı – cavablar vərəqində düzgün cavabın müvafiq xanasını X işarəsi ilə göstərin.**

**1. Şəkildə təsvir olunan hansı mədəniyyətin nümunəsidir?**



ა. Misir

ბ. Etrusk

გ. Çayarası

დ. Ege

**2. Təqdim olunan incəsənət nümunəsi nə adlanır?**



ა. Diptix

ბ. Poliptix

გ. Triptix

დ. Predela

**3. Şəkildə verilən tətbiqi incəsənət nümunəsinin dekorativ tərtibatına hansı təsvir uyğun *gəlmir*?**



ა. Simmetrik surətdə qurulmuş fiqurlu təsvir vazanın forması ilə məharətlə birləşir və kompozisiyalı quruluşun harmonik xarakteri ilə seçilir ;

ბ. Rəssamlıq mövzusu, fiqurların yerləşməsi və stilləşdirilmiş təsvirlərin özünəməxsusluğu Şərq nümunələrinin təsirini əks etdirir;

გ. Fiqurlu təsvirlərin və ornamentin sintezi əsasında antik keramikasının maraqlı nümunəsi yaradılır ;

დ. İşıq və kölgənin bir-birinin kəskin surətdə əvəz etməsi vazanın səthində fiqurların həcm formasını yaradır.

**4. Metalın səthindən götürülmüş şəklin surəti hansı termin ilə müəyyən edilir?**

ა. Litoqrafiya;

ბ. Ksiloqrafiya;

გ. Ofort;

დ. Linoqravüra.

**5. Orta əsrlərin gürcü xristian incəsənəti üçün hansı bədii forma yaddır ?**

ა. Yuvarlaq heykəltəraşlıq;

ბ. Relyef;

გ. Freska;

დ. Zərgərlik.

**6.Təqdim olunan incəsənət nümunəsi hansı dini bayramı əks etdirir?**



ა. Perissvaleba;

ბ. Natlisğeba (İsanın suya çəkilməsi);

გ. Xareba (müjdə);

დ. Mirkma.

**7. Manglisi kafedral kilsəsinin bəzəyinin bir parçası olan “Xaçın yüksəlməsi” kompozisiyasından mələykənin təsvirinə diqqət yetirin. Gürcü freska rəssamlığının təqdim olunan nümunəsi hansı bədii xüsusiyyətləri səciyyələndirir?**



ა. Fiqurun bucaqlı, qeyri-plastik hərəkəti;

ბ. Mükəmməl, çevik rəsm vasitəsi ilə yaradılmış azca uzadılmış plastik formalar;

გ. Yüngül deformasiyaya uğramış kəskin xətli ritm və dekorativlik;

დ. Kəskin, lokal rəngli ləkələr vasitəsilə yaradılmış stilizə edilmiş təsvir.

**8. Fotoda təqdim olunan hansı bədii cərəyanın nümunəsidir?**



ა. Simvolizm;

ბ. Siurealizm;

გ. İmpressionizm;

დ. Fovizm.

**9. Hansı bədii cərəyan kompozisiyalar yaratmaq üçün komiksdən, reklamdan və digər rəngarəng istehlak məhsulundan istifadə edir?**

ა. Postimpressionizm;

ბ. Futurizm;

გ. Realizm;

დ. Popart.

**10. Rənglərin hansı cütlüyü təzadlıdır?**

ა. Qırmızı - narıncı;

ბ. Sarı – bənövşəyi rəngli;

გ. Göy – yaşıl;

დ. Sarı –narıncı.

**11. Fikrinizcə, təqdim olunan incəsənət nümunəsi hansı texnika ilə düzəldilmişdir?**



ა. Freska;

ბ. Qravüra;

გ. Qobelen;

დ. Monotipiya.

**12. Təqdim olunan incəsənət nümunəsini yaratmaq üçün hansı materialdan istifadə olunmuşdur?**



ა. Akvarel;

ბ. Emal;

გ. Mum;

დ.Yağ.

**13. 17-ci əsrin Niderland rəssamlarının əsas təsvir obyektini təşkil edirdi:**

ა. İşıqla rəngin qarşılıqlı əlaqəsi;

ბ. Təsvirlərin mükəmməl formaları;

გ. Əsərlərdə öz emosional münasibətlərini əks etdirmək;

დ. Ətraf mühitin gerçəkliyi.

**14. Ornamentin özünəməxsusluğunu nə müəyyən edir?**

ა. Faktura;

ბ. Rəng;

გ. Forma;

დ. Təkrarlama.

**15. İllüstrasiyada verilmiş portret Misir heykəltəraşlığın əksəriyyətindən hansı xüsusiyyətləri ilə fərqlənir?**



ა. Usta simvolik təsvirlərə əhəmiyyət verir;

ბ. Usta kompozisiyanın qurulmasının formal vasitələrinə əhəmiyyət verir;

გ.Usta realist formalara əhəmiyyət verir;

დ. Usta geometrik formalara əhəmiyyət verir;

**16. Dərsdə niderlandlı rəssam Moris Eşerin aşağıda təqdim olunmuş kompozisiyasını ən çox hansı konkret məsələni müzakirə edərkən istifadə edə biləcəyinizi göstərib?**




ა. Təsviri incəsənət sahəsinin xüsusiyyətləri kimi qrafiki müzakirə edin;

ბ. Yaradıcılığın ilham mənbəyinə çevrilmiş tarixi hadisələri tanıyaq və müzakirə edək;

გ. Stilistik səciyyələndirmə əsasında incəsənət nümunəsini konkret dövrə yaxud bədii cərəyana aid edin;

დ. Metaforik və simvolik təfəkkürün təsviri kimi incəsənət əsərlərini müzakirə edək.

**17. Rəssam Marsel Duşamp tərəfindən “Pilləkəndən düşən Nyu” rəsminin yaradılması üçün istifadə olunmuş əsas təsviri üsulların hansı olduğunu müəyyən edin.**



ა. Ritm və hərəkət;

ბ. Forma və perspektiv;

გ. Perspektiv və balans;

დ. Simmetriya və bütövlük.

**18. Bədii əsərin stilini hansı termin daha yaxşı əks etdirir?**



ა. Rəngkarlıq;

ბ. Abstraktlıq;

გ. Akademiklik;

დ. Xətli.

**19. Real və irreal elementlərin əsərdə birləşməsindən hansı bədii cərəyan istifadə edir?**



ა. İmpressionizm;

ბ. Siurealizm;

გ. Ar-nuvo;

დ. Ekspressionizm.

**20-25 tapşırıq.** ***„Doğrudur-səhvdir“***

**Tapşırığın təlimatı** – Verilən müddəalarla diqqətlə tanış olun - əgər müddəanı düzgün saysanız, müvafiq xanada işarə edin. Bu təqdirdə izahat vermək tələb olunmayacaqdır. Əgər müddəanı səhv saysanız, müvafiq xananı işarə edin və xüsusi olaraq ayrılmış yerdə düzgün formulu yazın.

**Qeyd:** Əgər formulun səhv olduğunu və sübutda verilmiş izahatın öz-özlüyündə düzgün yaradıldığını düşünürsünüzsə, ancaq verilən terminin yaxud sözün izahını vermirsə, izahı dəyişməz qoyun və həmin izah üçün müvafiq termini yaxud sözü tapıb əlaqələndirin.

**Nümunə:**



**20**. **Sütunlar vasitəsilə üç yaxud beş nefə bölünmüş, planda uzadılmış düzbucaqlı tikintiyə bazilika deyilir.**

**21. İslam incəsənəti geometrik formalı təsvirləri qadağan edirdi.**

**22. Şəkildə təsvirin kəskin konturlarının yumşaldılması və tutqunlaşdırılması impasto adlanır.**

**23. Yunan arxitekturasında sütunların üç əsas növünə rast gəlinir – dori, ionik, klassik.**

**24. Balans, ritm, proporsiya təsviri incənət üsullarıdır (prinsipləridir).**

**25. Planda dörd tərəfdən sütunlarla əhatə edilmiş düzbucaq formalı qurğuya perifter deyilir.**

**26.** ***Praktiki iş***

**Təlimat – Nümunə kimi Anri Matisin qrafik zarisovkası verilmişdir. Verilən nümunə üzrə kompozisiyanın sizə məxsus interpretasiyasını yaradın. Eyni zamanda müstəvivari təsvirə həcm verin. Kompozisiyanın bölüşdürülməsi prinsiplərini nəzərə almaqla təsviri müvafiq olaraq şəkil müstəvisində yerləşdirin. Kompozisiyanı praktiki tapşırığa məxsus olan vərəqdə əks etdirin.**



**27-31. Xronologiyanın müəyyən edilməsi.**

**Tapşırığın təlimatı** – Bədii cərəyanları (qədimdən ən yeniyə doğru) rəssamları, arxitektura və təsviri incəsənət nümunələrini onların yaradıldığı dövrə görə düzün. Cavabları cavablar vərəqində verilmiş cədvələ yazın. Nəzərə alın ki, cədvəldə yalnız seçilmiş vahidin müvafiq rəqəmi yazılır.

**27. Klod Monenin əsərlərini onların yaradıldığı dövrə görə yerləşdirin:**

1.



2.



3.



4.



**28. Bədii üslubları xronoloji qaydada yerləşdirin:**

1. Barokko;

2. Manierizm;

3. Dadaizm;

4. Simvolizm.

**29. Dünya əhəmiyyətli məşhur arxitektura nümunələrini onların yaradıldığı dövrə görə yerləşdirin:**

1.



2.



3.



4.



**30. Orta əsrlərin gürcü xristian arxitekturası tiplərini xronoloji ardıcıllıqla yerləşdirin:**

1. Mərkəzi-kümbəzli;
2. Trikonk;
3. Tetrakonk;
4. Kupel Hale.

**31. Yaz mövzusunda yaradılmış məşhur incəsənət nümunələrini xronoloji qaydada yerləşdirin.**

1.




2.



3.



4.



**32. Uyğunluğun müəyyən edilməsi**

**Tapşırığın təlimatı -** A sütununda verilmiş bədii stilistik səciyyəli siyahını B sütununda verilmiş cərəyanla/dövrlə əlaqələndirin. Nəzərə alın ki, bir səciyyəyə yalnız bir cərəyan yaxud dövr uyğun gəlir.

| Bədii-stilistik xarakterik cizgilər | Cərəyan/dövr |
|---|---|
| 1. Bir-birinin yanında qoyulmuş təmiz, qatışıksız, müxtəlif rəngli sürətli və qısa geyimlər tamaşaçının nəzərlərində bir-birinə qarışır və hərəkət, həmçinin işıq effekti yaradır.<br><br>2. Kompozisiyanın diaqonal quruluşu, işıq-kölgənin kəskin təzadı, kompozisiyanın dinamik, həyəcanlı xarakteri;<br><br>3. Bədii formalı lakoniklik və sadəlik. Nəzərə çarpan jestikulyasiya və azca deformasiyaya uğramış şərti formalar, iş görülməsinin sərbəst manerası. | ა. İmpressionizm<br><br>ბ. Ar-Nüvo<br><br>გ. Renessans<br><br>დ. Barokko<br><br>ე. Modernizm |

**33. Uyğunluğun müəyyən edilməsi**

**Tapşırğın təlimatı -** A sütununda verilmiş bədii texnikanı xarakterizə edən siyahını B sütununda verilmiş bədii texnika ilə uyğunlaşdırın. Nəzərə alın ki, bir səciyyəyə yalnız bir texnika uyğun gəlir.

| **Bədii texnikanın xarakterik cizgiləri** | **Bədii texnika** |
|---|---|
| 1. Quru suvaq üzərində suda həll edilmiş boya ilə çəkilmiş rəsm;<br><br>2. Taxta üzərində yaradılmış relyef təsvirinin surəti;<br><br>3. Kağız, karton, parça üzərində karandaşla, kömürlə, pastellə, tuşla, sanginlə, akvarellə və quaş boyalarla yaradılmış təsvir. | ა. Rəngkarlıq;<br><br>ბ. Qrafika;<br><br>გ. Freska;<br><br>დ. Seko;<br><br>ე. Qravüra. |

**34. Bəzi incəsənət nümunələri mədəniyyətin, tarixin, tarixi faktın şərhi kimi düşünülmüşdür. Verilən dörd şəkildən incəsənət nümunəsinin birini seçin və onu konkret tarixi hadisə ilə əlaqələndirin. Əsəri təhlil və müəyyən edin.**

1.




2.



**3.**



**4.**




a. Təsviri və kontekstual xüsusiyyətlər bu əsərin sizin adını çəkdiyiniz hadisə ilə əlaqəsini aşkar edir;
b. Müəllif əsərin ideyasını hansı bədii üsulların vasitəsilə əks etidir?

**35. İncəsənət nümunəsinin təsviri və təhlili**
Aşağıda verilən incəsənət nümunəsini düşünün, təhlil edin və qiymətləndirin



**Tapşırığa göstərişə əsasən əməl edin.**
**35.1** Kompozisiyanı təsvir edin və səciyyələndirin: bu kompozisiya hansı mövzuda yaradılmışdır; tapşırıq və texnika əsasında təsviri incəsənətin hansı nümunəsinin təqdim edildiyini göstərin.



**35.2** Müəllifin bədii xarakterli əsər yaratmaq üçün hansı vasitə və üsullardan istifadə etdiyini təhlil edin və qısa formalaşdırın;

**35.3** Bədii-stilistik səciyyələr əsasında əsərin yaradıldığı dövrü müəyyən edin, hansı ölkənin incəsənət nümunəsinin təqdim olunduğunu göstərin və müəllifin adını çəkin.

**35.4** Əsəri qiymətləndirin – öz münasibətinizi bildirin, fikrinizi müzakirə edin və əsaslandırın;

**35.5** Hadisələr barədə mühakimə yürüdün, əsərləri tarixi-mədəni və s. baxımdan müzakirə edin.